# Söz sərrafı

Ədəbi yaradıcılığına və şəxsiyyətinə çox yaxından bələd olduğum, şair Ətraf Sərraf indiyədək yaşına görə xeyli kitab nəşr etdirmişdir. Kitabdan-kitaba o, püxtələşərək yaradıcılığının kamillik dövrünə qədəm qoymuşdur. Ötən əsrin 90-cı illərinin ortalarında (1995) ilk şeirlər kitabı işıq üzü görüb. Mətbuatda müntəzəm çap olunur. Prezident təqaüdünə və Rəsul Rza adına Beynəlxalq mükafata layiq görülmüşdür. Ədəbi şəxsiyyətinə bələd olanlar onun nə qədər təvazökar, sadə, sakit, az danışan, fəqət hədəfini düz seçən,şeirlərində iç dünyasını təbiiliklə,səmimi poetik bir dillə açıqlayan,bununlada ətraf mühitində, ümumən dünyada baş verən ictimai-fəlsəfi reallıqların ən xırdalıqlarını belə geniş oxucu kütləsinə asta-asta, usta-usta çatdıran, bununla da hər kəsin qəlbində oyanış, tərpəniş yaradan, ən aşağısı poetik "mən"i və incə yumorlu deyimləri ilə təbəssüm kimi dodaqlara qonan bir istedadlı şair olduğunu dönə-dönə vurğulayır, ətrafsevərlər və dostları tərəfindən sevilən bir insan olaraq özünü yazan şairlər səfində öz yerini düzgün təyin edən, lakin öndə görünməyi utancaqlıqla qəbul etməyən və bütün bunlara görədə yaradıcılıq etibarilə bənzərsizlik qazanan, öz fərdi üslubunu yaradan tanınmış bir şair olsa da, biz hər dəfə ondan daha səlis, mükəmməl, ədəbi hadisəyə səbəb ola biləcək ədəbi nümunələr ummuşuq və bu haqqımızda doğru olduğumuzainanaraq hər uğuruna sevinmiş, onu ədəbi aləmdə əsl ədəbiyyat adamı kimi qəbul etmişik. Onun son kitabına ("Ömür bir fəsilmiş".Bakı, 2021 "Elm və təhsil") ön söz yazan ədəbi tənqidimizin ağsaqqalı, sadəliyinin, səmimiyyətinin böyüklüyünə, elmi erudisiyasına rəğbət bəslədiyim filologiya elmləri doktoru, dostum Vaqif Yusifli də bizimlə sanki sözləşibmiş kimi son söz olaraq deyir: "Ətrafın 65 yaşı tamam olur o, artıq yetkin şairdir. Yazmışdım ki, "Altmışdan sonra-kamillik dövrünün ucalığında təzə, təravətli, əsl poeziya nümunələri gözləyirik sizdən" - yeni kitabın göstərir ki, Ətraf Sərraf əsl poeziya nümunələri yaradır. Amma yol bitmir Ətraf Sərrafin daha gözəl şeirlər yazacaği illər qabaqdadır".

Əzizim Ətraf,həyat ötəri, ömür keçicidir. Bunu özün də yaxşı bilirsən.Bəs mən dediyim fundamental, diapazonlu, dərin və geniş arenalı ümumbəşəri bir mövzunun klassik bir ustalıqla bədii həllini verən növbəti kitab nəvaxt yazılacaq? Xalq şairi səviyyəsinə bir addımlıqdadayanansən Ətrafdan bunu gözləyirik,axı sənə inanırıq. Və bu inamla da bu son kitabının məziyyətlərini çözələməyi özümüzə, ədəbi zövqümüzə borc bildik. Qoy oxucular bilsin ki,məqalədə əsl ədəbiyyat yaradan bir şair haqqında söhbət açırıq.

Özün haqqında ən yaxşı sözü elə özün demisən.İlkin olaraq özünün qeydlərini oxuyaq, sonra ədəbi səliqən, təsərrüfatının acılı-şirinli tərəflərinin nüansları barədə söhbətə başlayaq. Söhbətimizdə Vaqif müəllimin düşüncələri ilə üst-üstə düşə biləcək məqamlar olacağına təəccüb etməyin. Bu, təkrarçılıq deyil, ədəbi zövqümüzün qoşalaşmasından xəbər verir. Mən bundan çox məmnunam. İndi isəkeçək özünütəqdimata-kitabin "müəllifdən" başlığı altında yazılmış sətirlərə...

"...Gəncliyimdə ömrü ümman bildim.
Bir iz qoyub keçmək istədim.
Dalğalar izimi poza bilməsə,
Bu mənim ən böyük səadətimdir! - dedim.

Sonra valideyn itkisi, dost-yoldaş itkisi yaddaş ağrısına,göynəyinə döndü.

Bir ara gözəl günlər oldu-körpə balalarıma qoşuldum, şeirlər dedim, hətta nağıllar danışdım onlara.

...Qəfildən ömrümün ən böyük faciəsini yaşadım.- Nərmin balam dünyamızı tərk etdi. "Ayrılığın o üzündən baxdı bizə...

*Dağlandı sinəm..."*

*"Çətinli-asanlı yol"a çıxdığımı anladım. "Bu yol ömür yoludur" axı...*

*Vətən dərdinə büründüm."Yara var qan sağalmaz"-dedim.*

*...Tez-tez "Yerinə utandığım adamlar"a rast gəldim.*

*Şeirlər yazdım. "Şeirlər haqqında şeirlər" yazdım.*

*Sonra yenə gözəl günlər oldu. "Güllü nənənin gül nəvələri"ylə vaxt keçirdim.*

*...Və birdən qapım çalındı."Durum görüm kimdi döyən qapımı?" - deyib açdım. İstəmədiyim, amma gözlədiyim qonaq idi gələn.*

*Gəldi və qaldı.*

*...İndi o yaşlı adam mənə hər gün xatirələr danışır,-nağıl olan ömründən.*

*Xatirələri eynən mənim bu dediklərimlə üst-üstə düşür...*

"Ömür bir fəsilmiş..." Şeirlərinin əksəriyyətində bir şair ömrünün, şair yozmasının timsalında biz də bu fəsillərin içindən keçirik. Bu fəsillərlə həyatımız arasındakı paradoksallıqları görür, içimizdə etiraf edirik ki, Ətraf bizim fəsillərə bölünmüş həyatımızı necədə həssaslıqla təsvirini verib;təbii, səmimi, isti, məhrəm poetik saçmalar ruhumuza dinclik, eyni zamanda hərarət gətirir. Heyrətamiz onda üzə durur ki, bilir və dərk edirsən ki, bu həyati duyumlar özünü yoran həssas və istedadlı bir şairin ürək çırpıntılarıdır. Həmin çırpıntıların əksəriyyəti isə payız fəslinin sınıq, qırıq-qırıq yarpaq tökümlərinin üzərində köklənib.

Ömrünün payızını yaşayan və yazan şair duracaq olmayan dünyanın felinə uymur, əksinə ondan həzər edir, yaxşı insanlara könül dünyasından pay verir, naqislərə isə tüfənglə güllələr ataraq, həm gülüş boxçaları tikir, həm də qarnı başından yekələrə özündən müştəbehlərə, əliəyrilərə, nadan düşüncə sahiblərinə yerlərini göstərir. Yeri gəldikcə bildirərik ki, şairin bu sıradan olan şeirlərdən sitatlarla danışacağıq. İlkin olaraq fəsillərin birində həyat nəğməsini dəyişmiş kəndlərinə gəlişinə poetik xələt biçir. "Özündən qabaq yüyürən, üyünən ömür fonunda təəssüratını oxucularla bölüşür:

...Gəzdim kəndimizi xatirə kimi...
Gördüm yol üstündə tənha Palıdı, -



Ən ağır illərin "sadiq gəlin"i,
Ağ saçıma çəkdi yarpaq əlini.
...Hansı gül-çiçəyə mən qonaq oldum,
Tanıdım rənginə, ətrinə kimi.
Orda qəm-qüssəli bir şeirə doldum,
Yazıldım sonuncu sətrinə kimi.

Böyük Vurğunun sətirlərini anmamaq, həmin sətirlərlə assosiasiyanı vurğulamamaq mümkün deyil:

Hər gülə-çiçəyə könül verməsəm,
Mən xoş üz göstərib, xoş üz görməsəm,
Nərgiz, yasəmənlər inciyər məndən,
Güllərin ləçəyi tökülər dən-dən.

Poetik çəkilərin fərqinə varmağa dəyərmi? Təkcə bu deyimlərdəki poetik vüsət, hərarət, lətafət Ətrafın, həqiqətən, əsl istedadlı söz sərrafı olmasından xəbər verir, nəinki xəbər verir, bənzərsiz şair obrazının postamentini göstərir. Bu minvalla bir çox şeirlərində şair "ömründə qızıl zər olan itirilmiş ömrünü axtarır, ətrini güldən, çiçəkdən aldığı o günlərə artıq əl yetmir, amma gözdəndə çəkilmir, ruh kimi səni özünə çəkir.

Əlimi uzatdım, əlim yetmədi,
Yadıma gətirdim olanı, əlbət.
O günlər gözümdən bir an getmədi,
Acısı şirindi, şirini şərbət.

Düşüncələr, xatirələr cığırı isə bitmək bilmir, onun yaxasından asılıb bizi "yaz!" deyir. İndi yazmaq da "Bir içim su, bir udum hava" olan ömrün varaqları beləcə çevrilərək mənalı bir həyatın nəğmələrinə dönür:

Keçmək istədiyim yolaqdan keçib,
Dərəni adlayıb mən düzə gəldim.
Bəzən ilhamımla üz-üzə gəlim.
Təzə çiçəkləri tər söz yerinə,
Bircə -bircə üzüm düzüm şeirimə.
Bir gözəl gözündə azıb da qalım,
Məhəbbət şeirini yazıb da qalım.
Düşünüb axşamdan sabaha kimi,
Yol keçim günahdan savaba kimi. . .

Olumla-ölüm bəşər düşüncəsinin özü üçün təyin etdiyi zaman ölçüsü. Budur əsas məsələ-deyib saya gəlməz şərhlər yazmışıq, cild-cild kitablar bağlamışıq, usanıb bitməyirik. Vaxtın yetişməyini özümüz verə bilmərik. Kahinlik, görücülük dövrü deyil. Müqəddəs mənanı ziyarət etmiş mömin bəndə kimi bunu özün çoxumuzdan yaxşı dərk edirsən;"uşaq oyuncağı üçün uşağa döndüyünə", "hər gün"sabah açılacaq sözünə ovunduğuna, "hər gün unudulduğuna", "ümidinin ovxalanıb töküldüyünə"... görəmi? Bir sıra deyimlərində, bütöv şeirlərində bu cür saçmalar çoxdur. Onların hər biri özlüyündə təzə, deyilməmiş, qulaqda yeni səslənən düşüncələr axarı olsa da, tələsmə, qardaş. Təkcə Nərminsiz ömür ağrıların bəlkədə heç biri şair şeiriyyətində səndə olan qədər nəzmə çəkilməyib. Övlad itkisi... Bu, həqiqətən, böyük faciədir, lakin insan talelərində cəmləşəndə, özün kimi dərdkeşləri görəndə təskinlik qılığı, aldanışı ilə barışmamaq mümkün deyil. Səbr kasası ilə dolub yola çıxmağa tələsmə. Aldanışlara arxa çevirib üstünə yağan yalanlara, ləyaqətin ayaqlar altında sürünməsinə, elitar təbəqələrin hazırlığına, "kiçik padşahların" özbaşınalığına qarşı bəs kimin sözüylə çıxmalıyıq, onların riyakar simalarının kimin tənqid çubuğu ilə döyərləməliyik!? Əlbəttə, Ətraf Sərraf və onun kimi özünü xalq, vətən, bəşəriyyət üçün məsuliyyətli bilən digər yazarlar - yananlar.

Sən yanmasan,
mən yanmasam,
biz yanmasaq
Necə çıxar qaranlıqlar aydınlığa!?

Böyük Nazim Hikmət bu çağırışı məhz sənin kimi söz sərrafları, kədər şairləri üçün edib. Ustad nəsihətlərinə, haraylarına susmaq Allahın yerdə şairlərdən ibarət açarlarına qadağan olunub! Onun ətəyindən yapışıb daha inamla yaradıcılıq onalıqlarına doğru səmt almaq lazımdır. Bunu sən də yaxşı bilirsən, mən də. Özü də məndən, çoxlarından daha yaxşı üzü zirvələrə dikələn yolları uzada bilərsən. Yolun uzun və uğurlu olsun! Yeri gələndə o yola elə sal daşlar da at ki, ali baş komandanın sözünə məhəl qoymaqdıqlarına görə o daşlar dabaqlarını qabardacaq.

Şeirin gözəlliyi onun əsas bədii təsvir və ifadə vasitələrinin dolğunluğu, ifadə olunan fikrin qeyri-adiliyi, söz düzümlərinin poetik və sintetik ritmikası, müraciət olunan mövzunun ən mükəmməl təqdimat yönü ilə müəyyənləşir. Lakin təcrübə göstərir ki, həyatın xırdalıqları da mövzu obyektinə çevrilib qeyd olunanlarla bəzəndikdə təravətli, təsirli və vüsətli ola bilir. Ətrafın bir çox şeirləri başdan-başa bənzətmələr, metaforlar üzərində qurulsa da, təfəkkürü, düşüncəni daşlığa salmır. Onun hər bir deyimi beyin ayıqlığının, ovqatının sanki şıltaq vaxtının bəhrəsinə bənzədiyi üçün istər-istəməz xoş təbəssümlə qarşılamaq məcburiyyətində qalırıq. Şairin zərif yumorlu şeirlərinin hamısı beləcə zərif, saf saçmalarla bəzənərək Ətraf təbəssümün səssiz gülüşləri və həyati duyumlarıyla müşayət olunur. Qəbul edirsən ki, oxuduqların əsl ədəbiyyat nümunələridir, əsl şair köksündən qopan həyat nəğmələridir. "Asqırığ"ın təbii bioloji bir hadisə olduğunu, onun düşər-düşməzliyini hər birimiz qəbul edirik, hətta tək gələndə üzümüzü günəşə yönləndiririk ki, cütləşdirək. Ətraf yorumunda bu asqırıq həzin, zərif, gur, sonu olmayan cümlə, sıraya düzülən qafiyələr kimi sətir-sətir, xahiş, minnət, əmr, üzr kimi gəlib keçir.

Asqırıq cürbəcürdü:
biri həlim, biri kürdü.
Biri sakit- sakit gəlib sığallı keçir.
Sanki, incə bir qız uşağıdı ağıllı
keçir.
Biri də dəcəl oğlan uşağıdı -
haydı, küydü, qışqırıqdı,
gözyaşıdı, hıçqırıqdı.

Bir də görüşən, bu lətif yumorlu gülüş öz yerini həyat fəlsəfəsinə, onun rəngarəng çalarlarına səssizcə, hiss olunacaq dərəcədə qımışa-qımışa kəskin dönəmlər edir. Və hər dönəmdə sadəliyində ağır görünən incə yumor, ironiya, lazım gələndə kəskin satira, gülüş qataraq oxucu fikrilə həmrəyləşir, məhrəmləşir. Artıq bu o deməkdir ki, şairin bu qəbildən olan şeirləri insan qəlbinə asanlıqla yol açıb orada xoş guşənişin ola bilir. Ətraf yaradıcılığının ən başlıca qayəsi, əsas bədii məziyyəti bundan ibarətdir. Onu dönə-dönə oxuduqca şeirlərin bədii çəkisi, təsir gücü gözlərində dahada böyüyür və düşünəndə ki, bu şeirləri oxuyanda hansı psixoloji yaşantıyla boylaşıbsan, sanki, Ətraf da səni müşahidəsi altına alaraq vəziyyətinə gözlərini qıyaraq dostcasına səssizcə qımışır - "hə, döşünə yatıb, deyəsən" - deyir.

Ətrafın bu qəbildən olan sözləri, qışqırmır, oratorluq etmir, patetikadan yan keçir. Böyük məhəbbətin ürəklərdən səssiz-səmirsiz axdığı kimi onun vətənpərvərlik, vətən sevgisi, şəhidlərə ağı söyləyən şeirlərində də bir həlimlik, səssizlik, ürəkdə ağlayıb-gülmək, içində qürur hissi keçirmək, sevincini şaqqanaqsız əzizlərilə bölüşmək hissiyyatları isə qəlbimizdə qan ağladı, şair dərdinin böyüklüyünü burada görürük.

***(Davamı var)***

***Əkbər* Əlioğlu**
***filologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***